# Taxta Qoruyucu

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Penguin Taxta Qoruyucu yüksək keyfiyyətli, alkid qətran əsaslı, tək komponentli, yüksək səthə nüfuz etmə qabiliyyətinə malik, həşərat və atmosferin zərər verici amillərinə qarşı yüksək dayanıqlılıq göstərən taxta qoruyucu lakdır. Ultrabənövşəyi şüa təsirinə dayanıqlıdır. Daxilindəki piqmentin özəl xassələri sayəsində taxtanın təbii görkəmini, damar və düyünlərini saxlayaraq rəngləyir və beləliklə çox effektiv təbii görünüş verir.

### İstifadə olunacaq səthlər

Penguin Taxta Qoruyucu daxildə və xaricdə istifadə olunan, qorunması lazım olan taxta səthlərdə, qapı və pəncərələrdə, mebel və digər taxta örtüklərin rənglənməsində dekorativ və qoruyucu örtük olaraq istifadə olunur.

### Çəkilən qat qalınlığı və nəzəri yayılma sahəsi

| | **Ən az** | **Ən çox** |
|---|---|---|
| **Çəkilən qat qalınlığı, quru (µm)** | 10 | 20 |
| **Çəkilən qat qalınlığı, yaş (µm)** | 22 | 45 |
| **Nəzəri yayılma sahəsi ($m^2$/l)** | 49 | 24 |

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Müxtəlif rənglər |
| **Kütləcə qatı maddə miqdarı (kütlə %)** | 44±2 |
| **Sıxlığı (gr/$sm^3$)** | 0.89±0.03 |
| **Özlülüyü** | 50±3 |
| **Parlaqlıq** | Parlaq |
| **İncəldici** | Penguin Sintetik Tiner ilə 5-10%-ə qədər |

### Səthin hazırlanması

Tətbiq olunacaq səth boyamadan öncə toz, kir və yağ qalıqlarından təmizlənməlidir. Yüksək görüntü effekləri əldə etmək üçün taxta öz təbii halına qədər sumbata kağızı ilə təmizlənməlidir. Yüksək penetrasiyanı təmin etmək üçün birinci qat üçün 5-10 % Penguin Sintetik Tiner ilə durulaşdırılmalıdır. Boya yaxşıca qarışdırıldıqdan sonra iki qat şəkildə, qatlar arasında ən az 8-10 saat gözləməklə fırça, rulo və ya püskürdücü ilə tətbiq edilir. İstifadə zamanı səthin və ətraf mühitin temperaturu +5°C ilə +30°C arasında olmalıdır.

### İstifadə üsulları

### İstifadə üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Uyğundur |
| **Havasız tapanca üçün dəyərlər** | |
| Təzyizi | 120 - 180 bar |
| Tapança keçid ölçüsü | 0.38 - 0.48 mm |
| Bucağı | 60 – $80^0$ |

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Taxta Qoruyucu

## Texniki Məlumat Səhifəsi

| | |
|---|---|
| Süzgəc | Süzgəcin təmizliyinə riayət olunmalıdır. |
| **Havalı tapanca üçün dəyərlər** | |
| Təzyizi | 3-5 bar |
| Tapança keçid ölçüsü | 1.2 – 1.5 mm |
| **Fırça** | Uyğundur. Tətbiq qalınlığına diqqət edilməli |
| **Rulo** | Uyğundur. Tətbiq qalınlığına diqqət edilməli |

## Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.
- Normal hava şəraitlərində üst qat olaraq 3-4 saata, son quruma olaraq 24 saata quruyur. 2-ci və 3-cü qatın çəkilməsi üçün arada 8-10 saat interval gözlənilməlidir.

## Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Birbaşa günəş işığı düşməyən 5-35°C-lik mühitdə, açılmamış orijinal qablarında 3 il saxlana bilər.

## Qablaşdırılma şəkli

0.75 lt, 2.5 lt və 12 kq-lıq dəmir qablarda istehsal olunur.

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəng rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

"CMT GROUP" MMC
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Taxta Qoruyucu

## Texniki Məlumat Səhifəsi

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

| | |
|---|---|
| S 2 | : Uşaqların əli çatmayan yerdə saxlayın. |
| S 3 / 7 | : Konteyneri ağzı bağlı halda sərin yerdə saxlayın/ |
| S 24/25 | : Göz və dəri ilə təmasdan çəkinin. |
| S 29 | : Drenajlara atmayın. |
| S 46 | : Daxil edildikdə dərhal həkimə müraciət edin, qabı və ya etiketi göstərin. |

***Qeyd:*** *"CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az